# Mirzə Şəfi Vazeh haqqında "Vikipedia"da özbək dilində bölmə istifadəyə verilib

**Özbəkistandakı Heydər Əliyev adına Azərbaycan Mədəniyyət Mərkəzinin layihəsi ilə Azərbaycan klassik ədəbiyyatının tanınmış nümayəndələrindən olan, maarifpərvər ziyalı, şair, mütəfəkkir Mirzə Şəfi Vazeh haqqında "Vikipedia" Beynəlxalq Elektron Ensiklopediyasında özbək dilində "Mirzo Shafi Vazeh" adlı bölmə istifadəyə verilib.**

Azərbaycan Mədəniyyət Mərkəzinin "Vikipedia" heyəti tərəfindən yaradılmış bölmədə şairin həyatı, yaradıcılığı, Azərbaycan ədəbiyyatına və milli məfkurəyə verdiyi töhfələr, maarifçilik fəaliyyəti və s. məlumatlar yer alıb.

Mədəniyyət Mərkəzindən AZƏRTAC-a bildirilib ki, ümumilikdə 12 bölmədən və zəngin ədəbiyyat siyahısından, keçidlərdən ibarət vikiməqalədə Mirzə Şəfi Vazehin həyatı və yaradıcılığı, əsərləri ilə bağlı hərtərəfli, geniş məlumatlar öz əksini tapıb.

Məqalədə qeyd olunur ki, Azərbaycan şairi və mütəfəkkiri, xəttat, maarifçi və pedaqoqu Mirzə Şəfi "Vazeh" təxəllüsü ilə həm Azərbaycan, həm də fars dillərində şeirlər yazıb, poeziyamızın ənənələrini inkişaf etdirib. Bundan əlavə, geniş pedaqoji fəaliyyətlə də məşğul olan Mirzə Şəfi Tiflisdə Azərbaycan və fars dillərindən dərs deyib, Azərbaycanın gələcəyi üçün ziyalılar yetişdirib. Mirzə Şəfi rus pedaqoq İvan Qriqoryev ilə birlikdə Azərbaycan poeziyasının ilk ədəbiyyat müntəxəbatını və Tiflis gimnaziyası üçün "Tatar-rus lüğəti"ni tərtib edib.

Azərbaycan.- 2024.- 16 avqust (№ 174).- S.11.